# Əliqismət Lalayev: “60 illik yubileyimdə mənə bundan böyük hədiyyə ola bilməzdi”



Xəyalə Rəis
teatrşünas

**Sentyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında” sərəncam imzaladı.**

Milli mədəniyyətimizin inkişafında xidmətlərinə görə bir qrup mədəniyyət xadiminə fəxri adlar verildi. Onlardan “Əməkdar incəsənət xadimi” adına layiq görülənlərin biri də Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, Azərbaycan Dövlət Musiqili Teatrının direktoru, Naxçıvan MR-nın əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayevdir.



### QISA MƏLUMAT

Əliqismət Hümmət oğlu Lalayev 1956-cı il iyulun 4-də Salyan şəhərində anadan olub. 1972-ci ildə Salyan şəhər 4 saylı orta məktəbi əla qiymətlərlə bitirən Əliqismət ilk müstəqil addımlarını mədəniyyət sahəsində atıb: əvvəl klub müdiri, daha sonra Salyan rayon “Qələbə” qəzetində korrektor vəzifəsində çalışıb.

Ə. Lalayev 1975-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) rejissorluq fakültəsinə daxil olub, 1980-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirib. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xüsusi təyinatı ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində çalışan gənc rejissor daha sonra ordu sıralarına hərbi xidmətə çağırılıb

1982-ci ildə ordudan tərxis olunan Ə. Lalayev 1988-ci ilədək Naxçıvan Dövlət Musiqili Dram Teatrında rejissor və aktyor kimi əmək fəaliyyətini davam etdirib. Elə ilk tamaşalarından teatr ictimaiyyətinin diqqətini cəlb edib. Onun hazırladığı tamaşalar, ifa etdiyi rollar ideya-bədii düşüncə tərzi, səhnə yozumu, müasirliyi, gənclik cəsarəti ilə fərqlənib, milli teatrın dəyərli nümunələri kimi müxtəlif illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xüsusi mükafatlarını qazanıb.

1988-ci ildə Salyan şəhərinə qayıdan Ə. Lalayev əvvəlcə “Qələbə” qəzeti redaksiyasında məsul katib, daha sonra Rayon Mədəniyyət Şöbəsinin müdiri vəzifələrində çalışıb, 1993-cü ilin sentyabrında isə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini vəzifəsinə irəli çəkilib. 1996-cı ilin aprelində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi İncəsənət Baş İdarəsinin rəisi vəzifəsinə təyin olunan Ə.Lalayev 2006-2008-ci illərdə isə incəsənət şöbəsinin müdiri vəzifəsində çalışıb. 2008-ci ildən Azərbaycan Dövlət Musiqili Teatrının direktorudur.

Əliqismət Lalayev 1968-ci ildən dövri-mətbuatda çıxış edir. Yüzlərlə məqalə, oçerk və zarisovkanın müəllifidir. O, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi Mədəniyyət və İncəsənət Departamentinin direktorudur.

### SƏBƏBKARLA SÖHBƏTDƏN

Qeyd edək ki, iyulun 4-də Ə.Lalayevin 60 yaşı tamam oldu. Təntənəli yubiley keçirməyən Əməkdar incəsənət xadimi onun səbəblərini bizimlə müsahibəsində açıqladı.

**- İlk olaraq sizi təbrik edir, uğurlarınızın davamlı olmasını diləyirik. Hansı hissləri keçirirsiniz?**

- Bu çox gözəl duyğudur. Bildiyiniz kimi mən Naxçıvan Muxtar Respublikasının “Əməkdar İncəsənət xadimi” kimi böyük fəxri ad daşıyıram. Bu ad mənə təqdim olunanda çox gənc idim, cəmi 29 yaşım var idi. İndi isə cənab prezidentimiz İlham Əliyev mənim 40 illik yaradıcılığıma dəyər verib, qiymətləndirərək “Əməkdar İncəsənət Xadimi” fəxri adına layiq görüb. Mənə elə gəlir ki, sənət adamı üçün əməyinin qiymətləndirilməsindən gözəl heç nə ola bilməz. Sevindirici haldır ki, möhtərəm prezidentimiz ulu Heydər Əliyevin qoyub getdiyi gözəl ənənəni davam etdirir. Sənət adamlarına adlar verir, onların əməyini qiymətləndirir. Bundan əlavə, sənət adamlarına mənzillər verilir, onların sosial şəraiti hər zaman diqqətdə saxlanılır. Bu böyük qayğı üçün həm öz adımdan, həm də fəxri ada layiq görülmüş həmkarlarım adından cənab prezidentə təşəkkürlərmi bildirirəm. 60 illik yubileyimdə mənə bundan böyük hədiyyə ola bilməzdi.

**- Yubiley demişkən, iyulun 4-də sizin 60 yaşınız tamam oldu. Adətən sənət adamları yubileylərini təntənəli şəkildə qeyd edirlər. Bəs siz nə üçün yubileyinizi qeyd etmədiniz?**

- Yubileyimi Musiqili Teatrda keçirdim. Çünki mən də bu kollektivin bir üzvüyəm. Musiqili Teatrın kollektivi mənə doğmadır. Günümün çoxunu teatrda keçirirəm. Demək olar ki, bütün günüm kollektivin içərisində keçir. Mənim onlardan doğma kimim var ki? Ona görə də doğmalarımla birlikdə ad günümü qeyd etməkdən böyük bir sevinc hissi yaşamaq mümkün deyil.

**- 60 yaş yaşayıb-yaradan, sənət adamı üçün nə deməkdir?**

- 60 yaş az deyil. Bu yaşda demək istədiyimiz sözlər, cəmiyyətə ötürəcəyimiz mesajlar daha müdrik olacaq. Daha böyük sözlər demək ixtiyarımız olacaq. Səhnəyə gətirdiyimiz, tamaşaçılarla bölüşdüyümüz hisslər artıq daha gözəl olacaq.

**- Bir neçə həftədir ki, yeni mövsümə başlamışıq. Bu mövsümdən tamaşaçılar Musiqili Teatrdan nələr gözləsinlər?**

- Sentyabrın 18-də Milli Musiqi günündə mövsümü açdıq. Ölməz sənətkarımız Üzeyir Hacıbəyovun “O olmasın, bu olsun” komediyası ilə yenidən tamaşaçıların görüşünə gəldik. Bu tamaşa eyni zamanda Heydər Əliyev Fondu və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən festival çərçivəsində nümayiş olundu. “O olmasın, bu olsun” komediyası teatrımızın repertuarında ən gözəl yerlərdən birini tutur. Bu tamaşa “Zirvə” mükafatına layiq görülüb. Biz hər il mövsümü Üzeyir bəyin məhz bu tamaşası ilə açır və onunla da mövsümü bağlayırıq. Mövsüm yeniliklərinə gəlincə isə ötən mövsüm uğurlarımız çox oldu. Düşünürəm ki, bu il də ötən ildən geri qalmayacaq. Hazırda teatrda yeni tamaşanın məşqləri gedir. Belə ki, macar bəstəkarı İmre Kalmanın “Silva” əsəri üzərində işləyirik. Musiqili Teatrın rus bölməsi tərəfindən hazırlanan yeni tamaşanın quruluşçu-rejissoru Əməkdar artist Boris Lukinski, quruluşçu-drijoru Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov, quruluşçu-rəssamı isə Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorovdur. Bundan başqa Azərbaycan bölməsində ilk dəfə olaraq “Molla Nəsrəddin”i səhnəyə gətirəcəyik. Teatra dəvət olunan Tacikistan Respublikasının xalq artisti, Qırğızıstan Respublikasının əməkdar incəsənət xadimi, rejissor Sultan Usmanov Musiqili Teatrın səhnəsində özbək dramaturqu İbrahim Sadıqovun “Molla Nəsrəddinin beş arvadı” komediyasına quruluş verəcək. Düşünürəm ki, bu əsərlər ilin sonuna kimi tamaşaçılara təqdim olunacaq. Uşaqlar üçünsə “Meşə çaqqalsız olmaz” tamaşası hazırlanır. Layihələrimiz çoxdur, inşallah mövsüm ərzində onları tamaşaçılarımıza təqdim edəcəyik.

**- Əliqismət müəllim, mövsüm ərzində qastrol səfərləri gözlənilirmi?**

- Hər il qastrol səfərlərimiz olur. Ötən mövsümün sonunda Masallıda, Xaçmazda qastrol səfərlərimiz oldu. Bu il də ölkəmizin ayrı-ayrı bölgələrində tamaşalar nümayiş etdirməyi planlaşdırırıq.

**- Noyabrda Bakıda IV Beynəlxalq Teatr Konfransı keçiriləcək. Bu forumda necə iştirak edəcəksinizmi?**

- Əlbəttə. Noyabrın 6-10-da Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə IV Bakı Beynəlxalq Teatr Konfransı keçiriləcək. Tədbir “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramının icrası çərçivəsində təşkil ediləcək. Konfransın keçirilməsində əsas məqsəd dünyanın müxtəlif ölkələrindən gəlmiş aparıcı nəzəriyyəçilər, alimlər, rejissorlar və prodüserlərlə müasir teatrın imkanlarını və qarşılaşdığı problemləri müzakirə etmək üçün platforma yaratmaqdır.

Builki konfransın əsas mövzusu “Multikulturalizm və teatr” olacaq. Həmçinin konfrans çərçivəsində beynəlxalq ekspertlər tərəfindən ustad dərsləri və treninqlər də keçiriləcək. Konfransa 40-dan çox ölkədən 150-dək teatr mütəxəssisi qatılacaq. Dünyanın məşhur teatr, incəsənət xadimləri - rejissorlar, aktyorlar, dramaturqlar, ssenaristlər, bir neçə ölkənin teatr xadimləri ittifaqlarının, beynəlxalq teatr festivallarının rəhbər şəxsləri, teatrla bağlı tanınmış qurumların, eləcə də müxtəlif ölkələrin teatrlarının rəhbərləri tədbirdə iştirak üçün təşkilat komitəsinə müraciət ediblər. Bu forum bizim teatrda baş tutacaq. Bu çox böyük bir tədbirdir. Dünyanın bir çox ölkəsindən qonaqlar gələcək. Böyük miqyaslı tədbirin bizim teatrda keçirilməsi üzərimizə böyük məsuliyyət qoyur. Düşünürəm ki, bunun da öhdəsindən layiqincə gələcəyik.

**- Musiqili teatr bu forumda hər hansı bir tamaşa nümayiş etdirəcəkmi?**

- Burada başqa teatrlardan tamaşalar göstəriləcək. Bizim binada olduğu üçün biz iştirak etməyəcəyik.

